# About great scientists and philosophies of the eastern world

**Aytek Mammadova**
Ph.D. in Philosophical Sciences, Associate Professor, Institute of Philosophy and Sociology of ANAS, leading researcher. Azerbaijan. E-mail: a.z.m-9@mail.ru
https://orcid.org/0000-0002-4915-6263

**Abstract.** The article discusses the activities of scientists and philosophers of the Eastern world of the Middle Ages, as well as the modern era. The Middle Ages were the pinnacle of Eastern science and philosophical thought, which obviously reflected in the creative heritage of the individuals who lived and worked during this period. Thanks to their scientific activities, they have occupied an important place in the history of world science and culture. Thanks to this, Yakub al-Kindi, Abu Nasr al-Farabi, Ibn Sina, Ibn Arabi, Abuhafs Omar Suhrawardi, Shamsaddin Khoylu, Safiaddin Hindi Urmavi Mahmoud Shabistari, Muhyiddin Muhammad Karabakhi, Kamaladdin Ardabili, Ahmed Ardabili and others gained immortality in history with their works. Their works influenced the activities of thinkers of subsequent centuries, as well as penetrated and influenced the Western world. The modern era is marked by the activities of genius thinkers and scientists engaged in ideology and moral values in the eastern world. During this period, such personalities as Ali bey Huseynzade, Yusuf Akchura, Mehmed Izzet, Mammad Emin Rasulzadeh, Ziyaddin Goyushov worked.
**Purpose:** 2020 is marked by the dates of birth and memory of those scientists and philosophers who lived in the Middle Ages and the modern era.
**Methodology:** systemic approach, historical method.
**Scientific novelty:** for the first time, the works of twenty great scientists and philosophers of the East, who livel and created in the middle Ages and modern period, whose birth and death dates are marked by 2020, are investigated.
**Keywords:** East, history, scientist, philosophy, culture, science.

http://dx.doi.org/10.29228/edu.249
**To cite this article:** Mammadova A. (2020) *About great scientists and philosophies of the eastern world.* «Scientific works», Vol. 34, Issue I, pp. 36-46
**Article history:** Received — 05.02.2020; Accepted — 01.03.2020

# Şərq dünyasının böyük alimləri və filosofları haqqında

**Aytək Məmmədova**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, aparıcı elmi işçi. Azərbaycan. E-mail: a.z.m-9@mail.ru
https://orcid.org/0000-0002-4915-6263

**Annotasiya.** Məqalədə Şərq dünyasının həm Orta əsrlərdə, həm də müasir dövrdə yetirdiyi alimlərin və filosofların fəaliyyətləri haqqında məsələlərdən bəhs edilir. Orta

əsrin Şərq elminin və fəlsəfi fikrinin ən yüksək zirvəsi olması bu dövrdə yaşayıb yaratmış şəxsiyyətlərin yaradıcılıq irsləri əsasında aşkar görünür. Elmi fəaliyyətləri ilə onlar dünya elm və mədəniyyəti tarixində əzəmətli mövqe tutmuşlar. Bu baxımdan Yəqub Kindi, Əbunəsr Farabi, İbn Sina, Əbülhəsən Əşəri, Maymonid, Fəxrəddin Razi, Əbülqasim Zəncani, İbn Ərəbi, Şihabəddin Ömər Sührəvərdi, Şəmsəddin Xoylu, Səfiəddin Hindi Urməvi, Mahmud Şəbüstəri, Məhəmməd Qarabaği, Kəmaləddin Ərdəbili, Əhməd Ərdəbili əsərləri ilə tarixdə həmişəyaşarlıq qazanmışlar. Onların əsərləri sonrakı əsrlərdə mütəfəkkirlərin fəaliyyətlərinə təsir etmiş, o cümlədən Qərb aləminə də nüfuz etmişdir. Müasir dövr Şərq dünyasında ideologiya və mənəvi dəyərlərlə məşğul olan dahi mütəfəkkirlərin və alimlərin fəaliyyətlərilə əlamətdardır. Bu dövrdə Əli bəy Hüseynzadə, Yusif Akçura, Mehmet İzzət, Məhəmməd Əmin Rəsulzadə, Ziyəddin Göyüşov kimi şəxsiyyətlər fəaliyyət göstərmişlər. 2020-ci il Orta əsrdə və müasir dövrdə yaşamış bu alimlərin, filosofların doğum və anım tarixləri ilə əlamətdardır.

**Məqsəd:** 2020-ci ildə doğum və anım tarixləri olan Şərqin iyirmi nəfər böyük aliminin və filosofunun yaradıcılığını araşdırmaq.

**Metodologiya:** sistemli yanaşma, tarixilik metodu.

**Elmi yenilik:** İlk dəfə olaraq Orta əsrlərdə və müasir dövrlərdə yaşayıb fəaliyyət göstərən, 2020-ci ildə doğum və anım tarixləri qeyd olunan iyirmi nəfər Şərq aliminin və filosofunun yaradıcılığından bəhs edilir.

**Açar sözlər:** Şərq, tarix, alim, fəlsəfə, mədəniyyət, elm.

http://dx.doi.org/10.29228/edu.249

**Məqaləyə istinad:** Məmmədova A. (2020) *Şərq dünyasının böyük alimləri və filosofları haqqında.* «Elmi əsərlər», № 1 (34), səh. 36-46

**Məqalə tarixçəsi:** Göndərilib – 05.02.2020; Qəbul edilib – 01.03.2020

## Giriş / *Introduction*

Şərq və Qərb ölkələri xalqları dünya fəlsəfi fikrinin, elminin yaradılmasında birgə iştirak etmişlər. Bu baxımdan Şərq dünyası müdrik şəxsiyyətləri, alimləri ilə bəşər mədəniyyəti tarixində özünəməxsus mövqeyə malikdir. Həm dini-fəlsəfi, həm də elmi-fəlsəfi təlimlər sahəsində əsərlər qələmə qalan Şərq dünyasının böyük dühaları elm və mədəniyyət tarixində özünəməxsus xidmət göstərmişlər. Onların yaradıcılıq irsləri əsrlər boyu elmi dəyərini saxlamış, həmin alimlərin və filosofların adları tarixin səhifələrinə qızıl hərflərlə yazılmışdır.

AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru Zakir Məmmədov Orta əsrlərdə xristian aləmində elmi fəlsəfənin olmadığını, yalnız zəif şəkildə sxolastika və mistika yayıldığını göstərmişdir. Azərbaycan alimi elmi tədqiqatı ilə həmin dövrdə Şərqdə, o cümlədən Azərbaycanda dini-fəlsəfə ilə yanaşı elmi-fəlsəfənin də mövcud olduğunu sübuta yetirmişdir. Zakir Məmmədov üç mühüm elmi-fəlsəfi təlimdən birini – Şərq peripatetizmini türk filosofu Əbunəsr Farabinin (873-950), digər ikisini – panteizmi və işraqiliyi Azərbaycan filosoflarından Eynəlqüzat Miyanəcinin (1099-1131) və Şihabəddin Yəhya Sührəvərdinin (1154-1191) yaratdıqlarını müəyyən etmişdir.

XIX əsrin əsrin sonlarından başlayan və XX əsrin əvvəllərində davam edən milli oyanış hərəkatı, müstəqil dövlətçiliyin qurulmasının nəzəri əsasları, bununla bağlı olaraq milli ideya və mənəvi dəyərlərlə əlaqədar məsələlər Azərbaycan tarixində parlaq şəkildə öz əksini tapmışdır. Maarif xadimi, təbiətşünas alim Həsən bəy Zərdabi (Məlikov) (1842-1907) 1875-ci ildə "Əkinçi" qəzetinin əsasını qoymaqla tarixdə milli mətbuatımızın banisi kimi şərəfli bir yer tutmuşdur. "Əkinçi" qəzetində o

dövrdə Azərbaycanda, Osmanlı İmperiyasında baş verən, eləcə də dünyada cərəyan edən hadisələr işıqlandırılmışdır. Bu il "Əkinçi" qəzetinin yaranmasının 145 illiyidir.

Azərbaycan, ümumiyyətlə, Şərq dünyası əsrlər boyu yetirdiyi şəxsiyyətlərinin və filosoflarının doğum və anım tarixlərinə görə həmin illərdə xüsusilə yad edilməlidir. Bu mənada 2020-ci il Kindi, Farabi, İbn Sina, Əbülhəsən Əşəri, İbn Ərəbi, Şihabəddin Ömər Sührəvərdi, Şəmsəddin Xoylu, Mahmud Şəbüstəri, Məhəmməd Qarabaği, Əli bəy Hüseynzadə, Yusif Akçura və başqa böyük dühaların doğum və anım tarixlərilə əlamətdardır.

**Əsas hissə / *Main Part***

**Orta əsr Şərq filosofları və alimləri**

Orta əsrdə yaşayıb yaratmış filosofların, mütəkəllimlərin, sufilərin, fəqihlərin və başqalarının irsi yüzilliklər keçsə də, dəyərini saxlamış, həmin alimlərin adlarını tarixdə yaşatmışdır.

Şərq peripatetizminin ilk böyük nümayəndəsi, mütəzilizm cərəyanına mənsub **Əbuyusif Yəqub ibn İshaq Kindi** (800-873) müxalifətçi sxolastlar içərisindən çıxıb peripatetizmi yaradıcı surətdə təbliğ etmişdir. Onun traktatları bütün müsəlman Şərqində örnək olmuş, XI əsrdən etibarən latın dilinə tərcümə edilərək Avropada geniş yayılmış, latın aləmində Alkindus kimi tanınmışdır. Ord.Prof. Hilmi Ziya Ülkən (1901-1974) Yəqub Kindinin İraqda yerləşən Kində ərəb qəbiləsindən, Bağdadda yetişmiş ilk ərəb filosofu olduğunu bildirmişdir. Bütün əski fəlsəfə tərcümələrini nəzərdən keçirmiş və düzəltmişdi. Aristotelin əsərlərini tamamlamışdı. 150-yə qədər əsər və şərh yazmışdır [10, s. 43].

Əbuyusif Yəqub Kindi müxtəlif elmlər sahəsində böyük nüfuz qazanmışdı. AMEA-nın müxbir üzvü, professor Zakir Məmmədov Orta əsr mənbələrinə istinadən yazmışdır ki, Kindi tibb, fəlsəfə, hesab elmi, məntiq, nəğmə bəstələmə, həndəsə, ədədlərin xassələri, kosmoqrafiya və ulduzlar elmi üzrə alim idi. Kindi İslamda öz əsərlərində Aristotel yolu ilə getmiş ilk filosofdur [3, s. 38]. **2020-ci ildə Yəqub Kindinin doğumunun 1220 illiyidir.**

Şərq peripatetizminin mükəmməl sistemini yaradan böyük türk filosofu **Əbunəsr Məhəmməd Farabi** (874-950) dövrünün elmi biliklərinə yiyələnmiş, fəlsəfəyə göstərdiyi marağa görə qazi vəzifəsindən imtina etmiş, yalnız elmi yaradıcılıqla məşğul olmuşdur. Farabi "Elmlərin siyahıya alınması" ("İhsa əl-ülum") əsərində elmləri beş bölməyə ayırmışdır. Ensiklopedik alim elmlərin təsnifatı barədə yazmışdır: birinci bölmə - dil haqqında elm və onun qisimləri, ikinci bölmə - məntiq və onun qisimləri, üçüncü bölmə - riyazi elmlər və onun qisimləri, dördüncü bölmə - fizika və onun qisimləri, metafizika və onun qisimləri, beşinci bölmə - mülki elmlər və onun qisimləri, fiqh və kəlam.

Farabi Aristoteldən sonra "İkinci müəllim" adını almışdır. Zakir Məmmədov filosofun ilk dəfə olaraq dini və dini-fəlsəfi təlimlərdə mühüm yer tutan kreatsionizmə tənqidi yanaşıb, onu emanasiya prinsipi ilə əvəz etdiyini yazmışdır: Varlığın qisimlərini səbəb ilə nəticə asılılığında götürən filosof mövcudatın iradə ilə deyil, zəruri surətdə meydana çıxdığını söyləmişdir. O özünün emanasiya nəzəriyyəsində materiyanın əbədiliyinə ciddi əhəmiyyət vermişdir. Alimin əsərləri bütün müsəlman ölkələrində geniş yayılaraq elmi fəlsəfənin və təbiətşünaslığın əsaslandırılmasında mühüm vasitə və örnək olmuşdur [3, s. 38-39].

Əbunəsr Farabi Şamda 950-ci ildə vəfat etmişdir. Bəzi mənbələrdə isə Farabinin həlak olması yazılmışdır. Belə ki, Əbunəsr Farabi Şama gedərkən onun olduğu karvana yolda quldurlar basqın etmişlər. O, yayla ox atmaqda mahir olduğu üçün quldurlarla öldürülənə qədər vuruşmuşdur**. Bu il ensiklopedik alim Əbunəsr Farabinin vəfatının 1070 illiyidir.**

Böyük Azərbaycan mütəfəkkiri **Əbülqasim Səd Əli oğlu Zəncani** (990-1078) Zəncanda Məhəmməd Übeyd oğlu Zəncaninin, Misirdə Əbu Abdulla Məhəmmədin, Dəməşqdə Əbdürrəhman ibn Yasirin hədislərini dinləmişdir. Alimin irsinin yeganə araşdırıcısı Zakir Məmmədov mütəfəkkirin ömrünün son çağlarında Məkkəyə gedib orada "Şeyx əl-Hərəm" vəzifəsində nüfuz qazandığını yazmışdır: Öz müasirləri Əbülqasim Zəncaninin din məsələlərini mükəmməl bildiyini, hədisçilikdə mötəbərliyini, çox ibadət etdiyini dönə-dönə xatırlatmışlar. Əbusəd Səmani Əbülqasim Zəncaniyə bəslənən yüksək ehtiramı belə ifadə edir: "O, hərəmdə göründükdə Mətaf (Kəbənin ətrafında dolanmaq

üçün xüsusi hasarlanmış yer) boşalır, onun əlini öpənlər Qara daşı öpənlərdən çox olur". Orta əsr müəllifləri Əbülqasim Zəncanini hədisləri bilməkdə məşhur Şeyx əl-islam Abdulla ibn Məhəmməd Ənsari ilə müqayisə etmiş, Azərbaycan aliminə üstünlük vermişlər [3, s. 61]. **Bu il Əbülqasim Zəncaninin doğumunun 1030 illiyidir.**

Ensiklopedik alim **Əbuəli İbn Sinanın** (980-1037) və şagirdlərinin əsərlərində elmlərin təsnifatını sistemli şəkildə vermişdir. Şərq filosoflarının yaratdıqları fəlsəfi təlimlər onların şagirdləri tərəfindən inkişaf etdirilərək məktəblərə çevrilirdi. Elmin müxtəlif sahələrinə dair qiymətli əsərləri ilə elm və mədəniyyət tarixində özünəməxsus mövqe qazanmış Nəsirəddin Tusi (1201-1274) İbn Sinanın şagirdi Bəhmənyar məktəbinin nümayəndəsidir.

İbn Sinanın "İşarələr və qeydlər" kitabı müxtəlif dövrlərdə filosof və mütəfəkkirlərin diqqət mərkəzində olmuşdur. Fəxrəddin Razi (1148-1210), Nəcməddin Naxçıvani (...-1253), Siracəddin Urməvi (1198-1283), Nəsirəddin Tusi, İbn Kəmmunə İsraili, Bürhanəddin Nəsəvi (...-1289) və başqalarının şərhləri, haşiyələri məşhurdur. Şərhçilərin bu kitaba münasibəti müəyyən mənada onların fəlsəfə tarxində tutduqları mövqeyi ifadə edirdi. Mütəkəllimlər (sxolastlar) bu qiymətli əsəri əsas etibarilə təkzib etməyə çalışır, peripatetik filosoflar isə elmi fəlsəfə tərəfində durur, mütərəqqi fikirlərin təhrifinə yol vermirdilər. Mütəkəllim Fəxrəddin Razinin və filosof Nəsirəddin Tusinin şərhləri bu ideya mübarizəsinin aparıcı istiqamətlərini təmsil edirdi.

Qeyd etmək lazımdır ki, Fəxrəddin Razinin yaradıcılığında hüquq və sxolastik ilahiyyat aparıcı mövzu olmuş, fəlsəfi məsələlər məhz həmin mövqedən nəzərdən keçirilmişdir. Bu baxımdan onun İbn Sinanın irsinə münasibəti səciyyəvidir. Fəxrəddin Razinin şərhində fəlsəfi müddəalar araşdırılıb aydınlaşdırılması əvəzinə dolaşdırılıb təkzib edilmişdir.

XIII əsrdən başlayaraq görkəmli filosofların məşhur traktatları əsasında yaradılmış şərh ədəbiyyatı daha da artmışdır. Bu mənada İbn Sinanın "İşarələr və qeydlər" kitabı şərh ədəbiyyatının bariz nümunələrindəndir. Fəxrəddin Razinin və Nəsirəddin Tusinin şərhləri xüsusilə diqqətə layiqdir.

Maraqlıdır ki, Fəxrəddin Razi bu şərhi Nəsirəddin Tusinin anadan olduğu ayda və ildə, yəni fevral 1201-ci (cümad əl-ula 597) ildə qələmə almışdır. Azərbaycan filosofu Fəxrəddin Raziyə "fəzilətli şərhçi" kimi ehtiramla yanaşsa da, İbn Sinaya qərəzli münasibətinə görə onu kəskin tənqid etmiş, həmin şərhə qarşı özünün şərhini yazmışdır. Filosofun fikrincə, Fəxrəddin Razi "mükalimə əsnasında müsahibinə cavab verərkən mübaliğə etmiş, onun müddəalarını heçə endirməkdə mötədillik həddini aşmışdır. Beləliklə, o, bu əməllərlə qarayaxmadan başqa bir şey artırmamışdır. Bu səbəbdən bəzi hazırcavablar onun şərhini təhqir adlandırmışlar". Nəsirəddin Tusi Fəxrəddin Razinin şərhinə münasibət bildirməklə özünün dəyərli şərhini yazmışdır.

Müsəlman Şərqi ölkələrində XIII əsrdə və sonrakı dövrlərdə ideoloji mübarizə ortodoksal islam ideoloqları ilə dünyəvi elmlərin nümayəndələri arasında kəskinləşmişdi. Təəssübkeş İslam ideoloqları İbn Sina məktəbinin nümayəndələrinə, o cümlədən Nəsirəddin Tusiyə mənfi münasibət bəsləyirdilər. Məntiq və təbiətşünaslıqla məşğul olan filosoflar isə İbn Sinanın ardıcıllarına ehtiramla yanaşır, onların əsərlərinə dolğun şərhlər və haşiyələr yazırdılar.

Elmi fəlsəfənin qüdrətli müdafiəçisi Nəsirəddin Tusi öz sələflərinin ideyalarını yaradıcılıqla davam etdirmişdir. Azərbaycan filosofu "İşarələr və qeydlər" kitabına yazdığı şərhdə İbn Sinanın mütərəqqi fəlsəfi fikirlərini ortodoksal islam ideoloqlarının hücumlarından cəsarətlə qorunmuş, inkişaf etdirilmişdir. Bu şərh sonrakı filosoflar üçün örnək olmuşdur. **2020-ci ildə İbn Sinanın doğumunun 1040 illiyidir.**

Böyük fəqih-mütəkəllim **Fəxrəddin Məhəmməd ibn Ömər Razinin** (1148-1210) yaradıcılığında hüquq və sxolastik ilahiyyat aparıcı mövzu olmuş, fəlsəfi məsələlər məhz həmin mövqedən nəzərdən keçirilmişdir. Fəxrəddin Razi İbn Sinanın "İşarələr və qeydlər" kitabını şərh etmişdir. Qeyd etmək lazımdır ki, mütəkəllimlər (sxolastlar) bu qiymətli əsəri əsas etibarilə təkzib etməyə çalışır, peripatetik filosoflar isə elmi fəlsəfə tərəfində durur, mütərəqqi fikirlərin təhrifinə yol vermirdilər. Mütəkəllim Fəxrəddin Razinin və filosof Nəsirəddin Tusinin şərhləri bu ideya mübarizəsinin aparıcı istiqamətlərini təmsil edirdi. Fəxrəddin Razi bu şərhi Nəsirəddin Tusinin anadan olduğu ayda və ildə, yəni fevral 1201-ci (cümad əl-ula 597) ildə qələmə almışdır. Azərbaycan filosofu

Fəxrəddin Raziyə "fəzilətli şərhçi" kimi ehtiramla yanaşsa da, İbn Sinaya qərəzli münasibətinə görə onu kəskin tənqid etmiş, həmin şərhə qarşı özünün şərhini yazmışdır. **Bu il Fəxrəddin Razinin vəfatının 810 illiyidir.**

Böyük mütəfəkkir **Əbülhəsən Əli ibn İsmayıl Əşəri** (873-935) ortodoksal islam sxolastikasının - Əşəriliyin banisidir. O, mütəzilizmin yaradıcı ideoloqları ilə uzun müddət həmfikir olmuş, həm də onlarla mübahisələr aparmışdır. Əvvəllər mütəzilizmin nümayəndəsi, qızğın təəssübkeşi sayılmasına baxmayaraq sonralar ona qarşı çıxmışdır. Əbülhəsən Əşəri və onun ardıcılları məntiq və fəlsəfə istilahlarını işlədirdilər. **Bu il Əbülhəsən Əşərinin vəfatının 1085 illiyidir.**

Azərbaycanın görkəmli hüquqşünas alimi, sufi nəzəriyyəçisi, ictimai-siyasi xadimi **Şihabəddin Əbuhəfs Ömər Sührəvərdi** (1145-1234) 1145-ci ilin yanvarında Zəncan yaxınlığındakı Sührəvərd şəhərində anadan olmuşdur. Gəncliyində Bağdada gedib, orada Nizamiyyə mədrəsəsinin müəllimi, əmisi Əbünnəcib Sührəvərdi, Əbdülqadir Cili, Əbuzürə Müqəddəsi və başqalarından təhsil almışdır. Mənbələrdə deyildiyi kimi, Əbuhəfs Sührəvərdi fiqh, təsəvvüf və ədəbiyyata dərindən yiyələnmiş, geniş əhatəli, mükəmməl biliyi ilə şöhrət qazanmışdır [3, s. 112].

Əbuhəfs Sührəvərdi əmisi Əbunnəcib Sührəvərdinin Dəclə çayı sahilindəki ribatları nəzdində mədrəsədə müəllimlik etmiş, tədris işləri ilə ciddi məşğul olmuşdur. Mənbələrin verdiyi məlumata görə, Bağdadda baş şeyx rütbəsini tutmuş, xilafətə elçilik (səfirlik) etmiş Şihabəddin Əbuhəfs Sührəvərdi varid olduğu yerlərdə böyük ehtiram və təntənə ilə qarşılanarmış. Şihabəddin Əbuhəfs Ömər Sührəvərdi ömrünün son çağlarında kor olmuş, 1234-cü ildə sentyabrın sonlarında Bağdadda ölmüş və orada Vərdiyyə qəbiristanlığında dəfn edilmişdir [3, s. 113-114].

Əbuhəfs Sührəvərdinin sufi təlimi Əbuhamid Qəzalinin sufi təliminə çox yaxındır. Hər iki mütəfəkkirə görə təsəvvüf yolçusu hallar və məqamlar silsiləsində mistik özünükamilləşdirmədən sonra mütləq heçliyə varmaqla haqqa qovuşur. Əbuhamid Qəzali kimi Əbuhəfs Sührəvərdi də təsəvvüfdə panteist təsəvvürü inkar etmişdir. Mütəfəkkir iddia edirdi ki, Əbuyəzid Bistami "Sühhanəllah!" ("Allaha şükür!") əvəzinə "Sübhani!" ("Mənə şükür!") və Həllac "Ənə əl-Haqq" ("Mən haqqam") deyərkən özlərini deyil, təkcə Allahı nəzərdə tutmuşlar [3, s. 121-122].

Şihabəddin Əbuhəfs Ömər Sührəvərdinin sufi təlimi onun övladları və ardıcılları tərəfindən inkişaf etdirilmiş, bütün müsəlman Şərqi ölkələrində nüfuz qazanmışdır. Sührəvərdiyyə sufi ordeni yalnız ərəb ölkələri, Kiçik Asiya, Azərbaycan, İran, Orta Asiyada deyil, habelə Hindistanda geniş yayılmışdır, Əsrlərin ideya sınağından keçmiş bu təlim öz varlığını bir sıra ölkələrdə müasir dövrə qədər saxlamışdırn [3, s. 122]. **2020-ci ildə Şihabəddin Ömər Sührəvərdinin doğumunun 875 illiyidir.**

Böyük sufi filosof **Mühyiddin Məhəmməd ibn Əli İbn Ərəbinin** (1165-1240) fəlsəfi təliminin formalaşmasına Quranın, neoplatonizmin, peripatetizmin, işraqiliyin, sufilərin və başqalarının mühüm təsiri vardır. Hilmi Ziya Ülkən İbn Ərəbinin sistemini "fərqli fəlsəfi sistemlərin və dini cərəyanların dörd yol ayrıcı" kimi dəyərləndirərək fikrini belə açıqlamışdır ki, Şihabəddin Sührəvərdinin işıq və qaranlıq nəzəriyyəsi onun sisteminin təməlini təşkil edir. "Məkkə fəthləri" ("Fütuhat əl–məkkiyə") əsərinin dördüncü cildində bir bölüm "onları qaranlıqlardan işığa çıxardıq" ayəsinin təhlilinə ayrılmışdır. Neoplatonizmdəki kimi, bir ilə çoxluğu uzlaşdırarkən İbn Ərəbi Platon və Aristotel fəlsəfələrini birər həqiqət mənzərəsi olaraq sisteminə daxil etmişdir.

Qeyd etmək lazımdır ki, tədqiqatçıların əksəriyyəti İbn Ərəbinin panteist olduğunu bildirməklə yanaşı, onu panteizmi sistemə salan ilk filosof kimi də təqdim etmişlər. AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Məmmədov tədqiqatlarında sufizmin panteist fəlsəfəsini İbn Ərəbidən hələ yarım əsrdən əvvəl, əsaslı surətdə, sistem halında ilk dəfə Azərbaycan filosofu Eynəlqüzat Miyanəcinin (1099-1131) işləyib hazırladığını göstərmişdir [3, s. 154].

Hilmi Ziya Ülkən "İbn Ərəbinin fəlsəfəsi bir panteizmdir. Fəqət bu kəlməni onda hər yerdə işlətdiyimiz mənada işlədə bilmərik. Çünki o təbiətlə Allahı bir saymaz. Plotin kimi aləmi sonsuz olan ilahi imkanların meydana çıxışı (zühur) olaraq görür" müddəasını irəli sürdükdən sonra göstərir ki, İbn Ərəbi tam panteist deyildir. Filosof bu fikrini İbn Ərəbini Spinoza ilə müqayisə etməklə açıqlayır və Spinoza kimi onda Allahla aləmin eyni olmadığını yazır [10, s. 243].

Zakir Məmmədov İbn Ərəbinin panteizminin Spinozanın fəlsəfəsi ilə müqayisəsindən bəhs edərkən bildirir ki, əndəlüslü sufi mütəfəkkirin panteizmi öz məzmununa və ifadə üslubuna görə Kuzalı Nikolayın təliminə daha çox yaxındır. Belə ki, onlar Spinozadan (eləcə də Eynəlqüzatdan) fərqli olaraq, kreatsionizm mövqeyində durmuş və özlərinin panteist təlimlərini bu teoloji əsasda yaratmışlar [3, s. 160]. **2020-ci ildə İbn Ərəbinin doğumunun 855 və vəfatının 780 illiyidir.**

Tarixi mənbələrdə dilçi, ədəbiyyatşünas, fəqih, mütəkəllim, filosof və təbib kimi tanınmış Şəmsəddin Əbülabbas Əhməd Xəlil oğlu Xoylu 1187-ci ilin dekabr ayında Xoy şəhərində doğulmuş, görkəmli alimlərdən dini və dünyəvi elmləri mükəmməl öyrənmişdir. Mütəfəkkirin irsinin yeganə araşdırıcısı Zakir Məmmədov yazmışdır ki, alim monqolların hücumu zamanı Şama getmiş, geniş biliyi ilə sultan İsa ibn Məlik Adilin dərin rəğbətini qazanmışdır. O, Dəməşqdə Adiliyyə və Dimağiyyə mədrəsələrində dərs demiş, bir çox məşhur alimlərin muəllimi olmuşdur. "Elmlərin mənbələri", "Üsula dair kitab", "Nəhv kitabı", "Hikmətli rəmzləri əhatə edən kitab" mütəfəkkirin başlıca əsərləridir. Azərbaycan alimi 2 mart 1240-cı ildə vəfat etmiş və Dəməşq yaxınlığında Qasiyun dağının ətəyində dəfn olunmuşdur. Şəmsəddin Xoylunun oğlu Şihabəddin Məhəmməd Xoylu (1229-1294) 1258-ci ildə Qüdsün, sonralar isə Hələbin və Misirin qazisi olmuş, eyni zamanda müəllimlik etmişdir [3, s. 192]. **Bu il Şəmsəddin Xoylunun vəfatının 780 illiyidir.**

Görkəmli hüquqşünas alim, filosof, ilahiyyatçı **Səfiəddin Məhəmməd Əbdürrəhim oğlu Hindi Urməvi** (1246-1315) böyük Azərbaycan filosofu Siracəddin Urməvinin (1198-1283) məşhur şagirdidir. Zakir Məmmədov mütəfəkkirin Hindistanda doğulduğunu, Yaxın və Orta Şərqin bir sıra şəhərlərini gəzdiyini yazmışdır: Səfiəddin Urməvi Yəməndə, Misirdə və b. ölkələrdə olduqdan sonra Kiçik Asiyada qarar tutmuş, Konya və Sivas şəhərlərində yaşamışdır. O, 1286-cı ildə Dəməşqə köçüb, ömrünün axırına qədər orada Zahiriyyə və Atabəkiyyə mədrəsələrində dərs demişdir. Səfiəddin Hindi Urməvi "Usul elminə çatmağın sonu", "Üstün", "Kəlam elmində diqqəti cəlb edən şeylərin mahiyyəti", "Nəfsə dair traktat" və başqa əsərlər yazmışdır [3, s. 197-198]. **2020-ci ildə Səfiəddin Hindi Urməvinin vəfatının 705 illiyidir.**

Böyük sufi mütəfəkkir **Sədəddin Mahmud Əbdülkərim oğlu Şəbüstəri Təbrizi** (1287-1320) Misir, Şam və Hicaz ölkələrinə səfər etmiş, kəndbəkənd, şəhərbəşəhər gəzmiş, hər yerdə alimlər və şeyxlərlə görüşmüş, elmi axtarışlarda olmuşdur. Zakir Məmmədov Mahmud Şəbüstərinin 1317-cı ildə qələmə aldığı "Sirr gülşəni" kitabında başlıca ideyanın varlığın vəhdətinin panteistcəsinə izahı olduğunu bildirmişdir: Mütəfəkkir Şərq peripatetiklərinin emanasiya nəzəriyyəsinin kreatsionizmə müxalif olması üzərinə gəlmədən mövcudatın mərtəbəli quruluşunu Quran surələrinə nisbətdə nəzərdən keçirir. "Bütün aləm Haqq-təalanın kitabıdır" deyən şair aksidensiyanı hallanmaya, substansiyanı hərflərə, mərtəbələri isə ayələrə və durğuya bənzədir. Onun fikrincə, hər bir aləm xüsusi surədir, biri "Fatihə", digəri "İxlas"dır.

"Mən Haqqam" deyən şair son nəticədə Allah, İnsan və Aləmi vəhdətdə, eyniyyətdə görür. Mahmud Şəbüstəri sufi sələfləri kimi, varlığın idrakında zahiri cəhətləri qavramağı şəriətə, daxili cəhətləri dərk etməyi isə həqiqətə bağlayır. Deməli, həqiqəti bilmək, haqqa çatmaq üçün şəriət ilə həqiqət arasındakı yolu (təriqəti) qət etmək lazımdır [3, s. 188-189]. **Bu il Mahmud Şəbüstərinin vəfatının 700 illiyidir.**

Azərbaycan filosofu və ilahiyyatçısı **Mühyiddin Məhəmməd Əli oğlu Qarabaği** (...-1535) XV əsrin ikinci yarısında Qarabağda anadan olmuş, dini və dünyəvi elmləri öyrənmişdir. Məhəmməd Qarabaği hənəfilik məzhəbi üzrə hüquqşünas alim olduğundan Hənəfi adı ilə tanınmışdır. Mütəfəkkir sonralar Kiçik Asiyaya gedib orada yaşayıb yaratmışdır. Bu səbəbdən mənbələrdə və məxəzlərdə onu Rumi nisbəsi ilə yad edirlər. Azərbaycanda Məhəmməd Qarabağinin irsinin yeganə araşdırıcısı Zakir Məmmədov yazmışdır: Mühyiddin Məhəmməd Qarabağinin varlıq və idrak haqqında fikirləri mövcud ideya cərəyanları, ələlxüsus peripatetizm və kəlam əsasında yaranıb formalaşmışdır. Mütəfəkkirin fəlsəfi görüşləri metafizika məsələlərinin filosoflar və mütəkəllimlər tərəfindən geniş müzakirəsinə onun müdaxiləsi zamanı aydın və konkret şəkil almışdır [3, s.276]. Məhəmməd Qarabaği fəlsəfi məsələlərdə peripatetiklərin və sxolastların baxışlarını gözdən keçirib, onlara tənqidi yanaşmış, tərəflərdən bəzən birini, bəzən də hər ikisini rədd etmiş, əsas etibarilə barışdırıcı mövqedə durmuşdur

[3, s. 282]. **2020-ci ildə Məhəmməd Qarabağinin vəfatının 485 illiyidir.**

Böyük Azərbaycan alimi **Kəmaləddin Hüseyn İlahi Ərdəbili** (1475-1543) bir müddət Heratda yaşamış, Əlişir Nəvai (1441-1501) və Şahzadə Qərib Mirzə ilə yaxın olmuşdur. O, 1497-ci ildə vətənə qayıtmış, ömrünün sonuna qədər müəllim işləmişdir. Dini və dünyəvi elmlərə dərindən yiyələnmiş Kəmaləddin Ərdəbili Şəmsəddin Səmərqəndinin, Nəsirəddin Tusinin, Cəlaləddin Dəvvaninin və b. əsərlərini şərh etmiş, Siracəddin Urməvinin "Nurların doğuşları", Katibi Qəzvininin "Şəmsəddin traktatı" kitablarının şərhlərinə haşiyələr yazmışdır. Kəmaləddin Ərdəbili tərəfindən nəzmlə Quranın təfsiri fars dilində bir neçə cilddə tamamlanmış, ərəb dilində isə yarımçıq qalmışdır. Onun Mahmud Şəbüstərinin "Sirr gülşəni" poemasına yazdığı şərh də yüksək qiymətləndirilir [3, s. 261]. **2020-ci ildə Kəmaləddin Ərdəbilinin doğumunun 545 illiyidir.**

Görkəmli Azərbaycan alimi **Əhməd Məhəmməd oğlu Ərdəbili** (...-1585) hüquqşünas və ilahiyyatçıdır. Zakir Məmmədov qeyd etmişdir ki, mütəfəkkirin məxəzlərdə "Quran ayələrinin və hökmlərinin şərhinə dair bəyanın məğzi", "Zehinlərin düzgün yol göstərməsinin şərhinə dair fayda və sübut toplusu" kitabının, Cəlaləddin Hillinin (...-1326) "Kəlamın təcridinin ilahiyyat hissəsinin şərhi" kitabını Nəsirəddin Tusinin əsərləri əsasında yazmışdır [3, s.264]. **Bu il Əhməd Ərdəbilinin vəfatının 435 illiyidir.**

Orta əsr Şərq fəlsəfəsi tarixində yəhudi əsilli alimlər özünəməxsus mövqeyə malikdirlər. Onlar əsas etibarilə hökmdar sarayında həkim işləməklə yanaşı, elmi biliklərlə də məşğul olmuşlar. AMEA-nın müxbir üzvü Zakir Məmmədov yəhudilərin Şərq dünyasındakı xidmətləri haqqında yazmışdır: "Orta əsr yəhudi alimlərinin və filosoflarının mühüm xidmətlərindən biri Şərq mədəniyyətinin, elmi-fəlsəfi fikrinin Qərb ölkələrində, ümumiyyətlə bütün dünyada yayılmasını təmin etmək olmuşdur. Bu işdə qədim yəhudi (ibrani) dili latın dili ilə bir sırada durmuşdur. Ərəb orijinalı itib-batmış onlarla qiymətli elmi-fəlsəfi traktat sonralar qədim yəhudi dilində (eləcə də latın dilində) qalmış tərcümələr sayəsində mövcud olmuşdur" [5, s. 15].

Yəhudi ilahiyyatçısı, filosofu və təbibi **Əbu İmran Musa İbn Məymun- Maymonid (Moisey ben Maymun)** (1135-1204) İbn Rüşddən və başqalarından təhsil almışdır. Quranı əzbər bilmiş, ölkədə rəsmi əqidə sayılan malikilik məzhəbi üzrə müsəlman hüququnu (fiqhi) öyrənmişdir. O, 1165-ci ildə Misirə getmiş, elə həmin vaxt Yerusəlimə ziyarəti zamanı yəhudi dininə qayıtmışdır. Mütəfəkkir Qahirədə Səlahəddin Əyyubinin saray həkimi işləmiş, yəhudilərin ruhani başçısı olmuşdur.

Maymonid ərəbdilli filosofların şərhində mənimsədiyi peripatetik fəlsəfənin köməyi ilə yəhudi ilahiyyatını təkmilləşdirməyə səy göstərmişdir. Alimə görə, ağıl ilə vəhy arasında, Aristotel fəlsəfəsi ilə Tövrat arasında ziddiyyət yoxdur. İbn Rüşdün yolunu davam etdirən mütəfəkkir fəlsəfə ilə ilahiyyatın dünyagörüşü kimi vəhdət təşkil etdiyini, həqiqi din ilə həqiqi fəlsəfənin bir-birinə uyğun olduğunu bildirmişdir. **Bu il İbn Məymunun-Maymonidin doğumunun 885 illiyidir.**

Orta əsrdə müsəlman Şərqində elm və fəlsəfə yüksək səviyyədə idi. Lakin Yeni dövrdən etibarən müsəlman Şərqinə məxsus elmi-mədəni və fəlsəfi irs tənəzzül etməyə başlayır.

**Müasir dövrdə Şərq dünyasının mütəfəkkirləri haqqında**

Yeni dövrdən etibarən müsəlman Şərqi ölkələrində elmin, mədəniyyətin və fəlsəfi fikrin tənəzzülə uğradığı bir zamanda Qərb ölkələrində elm, mədəniyyət və fəlsəfə sahələrində inkişaf özünü göstərir. Qərbin elmi yenilikləri isə Şərq dünyasına təsir etməyə başlayır.

Müasir dövrdə Şərq dünyasının, o cümlədən türk aləminin elmi-mədəni mühitində tərəqqi xüsusilə diqqəti cəlb edirdi, ictimai-siyasi həyatında isə ideologiya ilə bağlı məsələlər ön planda idi.

Azərbaycanın və Türkiyənin ictimai-siyasi həyatında özünəməxsus mühüm yer tutmuş **Əli bəy Hüseynzadə** (1864-1940) uşaqlığını babası Qafqaz Şeyxülislamı Əhməd Hüseynzadə Səlyaninin yanında və tərbiyəsi altında keçirmiş, babası Şeyx Əhməd ilə onun dostu Azərbaycan dramaturgiyasının banisi, ictimai xadim Mirzə Fətəli Axundovun (1812-1878) söhbətlərindən faydalanmışdır. Gimnaziya tələbəliyindən etibarən türkcəyə, Türkçülüyə və Türkiyəyə əsaslanmağının zəruriliyi fikrinin yaranmasında Şeyx Səlyaninin və Mirzə Fətəli Axundovun böyük təsiri olmuşdu [12, s. 268].

Türkiyənin görkəmli ictimai xadimi Ziya Gökalp (1876-1924) Əli bəy Hüseynzadədən bəhs edərkən onun Rusiyadakı millətçilik cərəyanlarının təsiriylə türkçü olduğunu, xüsusilə hələ kollecdə

ikən gürcü gənclərindən son dərəcə millət sevər olan bir yoldaşı ona millət sevgisini aşıladığını yazmışdır [9, s. 7].

Əli bəy Hüseynzadə, babası Əhməd Hüseynzadənin və Mirzə Fətəli Axundovun söhbətlərinin təsiri altında böyümüşdü. Şübhəsiz ki, onda artıq millət sevgisi uşaqlıqdan formalaşmışdı. Digər tərəfdən, Hilmi Ziya Ülkənin qeyd etdiyi kimi, Türkçülüklə bağlı fikirlərin formalaşmasında Əli bəy Hüseynzadəyə bu iki şəxsiyyətin böyük təsiri olmuşdu. Mirzə Fətəli Axundovun Ziya Gökalp tərəfindən də böyük türkçü kimi qəbul edilmişdir. Bu arqumentlər Ziya Gökalpın Əli bəy Hüseynzadəyə bir gürcü yoldaşının ona millət sevgisini aşılaması haqqında yazdığı faktı təkzib edir.

Hilmi Ziya Ülkən Əli bəy Hüseynzadənin rusca, fransızca, almanca, ərəbcə və farscanı yaxşı bildiyini, ingiliscə, latınca və əski yunancanı gimyaziyada təhsili zamanı öyrəndiyini qeyd etmişdir: Hüseynzadə rəssamlıqla məşğul olmuş və klassik rəsm anlayışına uyğun olan bir çox yağlı boya ilə çəkdiyi tablosu vardı. Evinin bağçası bir botanika seriyası halında idi [11, s. 10].

Hilmi Ziya Ülkənin fikrincə, 1905-ci ildə Tiflisdə Əli bəy Hüseynzadə tərəfindən irəli sürülən Türkləşmək, İslamlaşmaq və Avropalaşmaq fikri, 1911-ci ildə hərarətli tərəfdarlar tapdı. Ziya Gökalp "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" adlı məqalələrini və 1918-ci ildə bu məqalələrdən ibarət kitabını çap etdirdi.

Əli bəy Hüseynzadənin "Türkləşmək, İslamlaşmaq və Avropalaşmaq" ideyası Şərq və Qərb dəyərlərinin mükəmməl sintezini təqdim edən düstur kimi tarixi aktuallığını və əbədiliyini təmin etmişdir. **2020-ci ildə Əli bəy Hüseynzadənin vəfatının 80 illiyidir.**

Türk dünyasının böyük mütəfəkkiri **Yusif Akçura** (1879-1935) Şərq mədəniyyəti tarixində özünəməxsus mövqeyə malikdir. Alim ilk sayı 30 noyabr 1911-ci ildə çapdan çıxmış "Türk Yurdu" dərgisinin ilk redaktoru olmuş, Türk Ocağının qurucularından idi. Bu münasibətlə Hilmi Ziya Ülkən yazmışdır: Yusif Akçura Türkiyə Cümhuriyyəti yarandıqdan etibarən millət vəkili kimi fəaliyyət göstərmiş, Atatürkün qurduğu Türk Tarix Qurumunun başçısı olmuşdur. Bir zaman Türk Yurdu və Ocak demək, Akçura deməkdi [12, s. 388].

Yusif Akçuranın "Üç tərzi siyasət" kitabında Osmanlı birliyi, İslam birliyi və Türk birliyi kimi siyasət üsulundan bəhs edilir. Mütəfəkkir yazmışdır: Osmanlı ölkələrində, qərbdən feyz alaraq, qüvvə qazanmaq və tərəqqi arzuları oyanalı, bəlli başlı üç siyasi yol təsəvvür və izlənildi sanıram: Birincisi, Osmanlı hökumətinə tabe müxtəlif millətləri təmsil edərək və birləşdirərək bir osmanlı milləti vücuda gətirmək. İkincisi, xilafət haqqının Osmanlı dövləti hökmdarlarında olmasından faydalanaraq, bütün islam aləmi məsələsində hökumətin idarəsində siyasətən birləşdirməkdir (Avropalıların "Panislamizm dedikləridir"). Üçüncüsü, irqə dayanan siyasi bir türk milləti təşkil etməkdir [7, s. 19]. **Bu il Yusif Akçuranın vəfatının 85 illiyidir.**

Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən, görkəmli dövlət xadimi **Məhəmməd Əmin Rəsulzadə** (1884-1955) Azərbaycanın dövlətçilik və mədəniyyət tarixində əvəzsiz xidmət göstərmişdir. Məhəmməd Əmin Rəsulzadə 1903-1904 illərdə "Azərbaycanlı gənc inqilabçılar dərnəyi"ni təşkil etmişdir. O, 1905-ci ildə verilən nisbi azadlıq sayəsində Bakıda gündəlik, həftəlik, aylıq qəzet və jurnallarda Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə və bilavasitə Azərbaycan mətbuatının ağsaqqalı, yaradıcısı Həsən bəy Zərdabi olmaqla milli mətbuatda fəaliyyət göstərmişdir [6, s. 6].

Görkəmli yazar və ictimai xadim Mirzə Bala Məmmədzadə Əli bəy Hüseynzadənin "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" düsturunun Ziya Gökalpa təsir etdiyini, onun vasitəsilə bu düsturun Məhəmməd Əmin Rəsulzadə tərəfindən də qəbul edildiyini bildirmişdir [6, s. 8].

Azərbaycan bayrağında bu düstur – mavi, qırmızı və yaşıl rənglərində ifadə edilmişdir. Məhəmməd Əmin Rəsulzadə bayraqda da "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" düsturunun ifadə edildiyini göstərmişdir: "Rus istibdadı pəncəsindən dağılmış xanlıqlar şəklində deyil, müttəhid və milli bir kütlə surətində nicat arayan Azərbaycan türklüyü bu istiqlalını tərtəmiz edəcək bayrağa əsri məfkurəsi ilə mütənasib bir məna vermək istəyirdi. Bu mənanı da "türkləşmək, islamlaşmaq, müasirləşmək" məfhumlarında tapdı: bayrağı mavi, yaşıl və al (mavi, al və yaşıl) rəngli qumaşlardan düzəldildi" [6, s. 8]. **Bu il Məhəmməd Əmin Rəsulzadənin vəfatının 65 illiyidir.**

Türkiyə fəlsəfəsi və sosiologiyası tarixində özünəməxsus mövqe qazanmış **Mehmet İzzət** (1891-1930) Şərq və Qərb məsələsində elmi şəkildə çıxış edərək, Türk düşüncəsinə töhfələr bəxş etmiş, elm tarixində filosof və sosioloq kimi mühüm yer tutmuşdur. Mehmet İzzətin irsinin elm tarixində lazımi dərəcədə tanınmadığını bildirən Türkiyənin böyük alimi Ziyaəddin Fəxri Fındıkoğlu (1901-1974) bunun səbəbini belə açıqlayır: "Əgər Prens Sabahəddin və Ziya Gökalp, dövrlərinin siyasi cərəyanlarına qarışmasaydılar, bu günkü tanınma dərəcələrinə çata bilərdilərmi? Şübhəsiz xeyr. Bu səbəblə Mehmet İzzətin kafi dərəcədə tanınmaması, özünə aid bir məsələ olmayıb, fəlsəfi qiymətlərlə, siyası qiymətlərin hələlik ayrılmamış olan bir çevrənin xüsusiyyətindən qaynaqlanan bir məsələdir" [8, s. 16].

Mehmet İzzətin başqa bir tələbəsi Hilmi Ziya Ülkən isə onu Ziya Gökalpla müqayisə edərək bu şəxsiyyətlər arasında fərqli cəhətləri göstərir: "Fikir adamlarında bir-birinə olduqca zidd iki örnəyə təsadüf edirik: Birincisində, fikirlər sürətlə fəaliyyət və hərəkət halına keçməyə hazırdır. Onlar inşa ilə əsla kifayətlənməzlər. Əsərlərini xüsusi təlqin və tətbiq etmək istəyirlər. Bu fəaliyyət və təlqin ehtiyacı, onlarda o qədər çoxdur ki, hətta fikirlərinin təfsilatları üzərində işləməkdən belə dəfələrlə imtina edərlər. Bu tip mütəfəkkirlər bir qənaətin iman halında yayılması üçün, hər ifadə şəklinə və hər vasitəyə müraciət edirlər. Təlqinin qüvvəsini təmin etmək üçün az-çox doqmatik olmağa məcburdurlar. Məhz Ziya Gökalp bu cür mütəfəkkirlərdəndi. Onun az zamanda populyar olmasının səbəbi bu nöqtədə aranmalıdır.

İkinci tip mütəfəkkirlər isə əksinə, fəlsəfi bir üsulu qəbul edərlər. Bunların nəzərində, bütün qiymət, fikir və düşüncədədir. Bir rəssam etinasıyla, onun üzərində uzun müddət çalışmaq lazımdır. Bu tip yazarlar ictimaiyyətin ehtiyacını düşünməyə vaxt tapmazlar. Meydana çıxardıqları əsərin, ikinci əldən fəaliyyətə keçirilməsini gözlər. Düşüncənin seçilmiş vəsfi olan tənqid fikirini itirməmək üçün sürətlə fəaliyyətə keçən imanlardan son dərəcə ehtiyat edirlər. Məhz Mehmet İzzət bu cür mütəfəkkirlərdəndir" [8, s. 17-18].

Mehmet İzzət "Qərb mədəniyyətinə, Qərb düşüncəsinə nüfuz edən azad düşüncəli bir türk filosofu, mütəfəkkiri, sosioloqudur" fikrini göstərən alimin görkəmli araşdırıcısı, Prof.Dr. Mahmud Coşqun Değirmencioğlu mülahizəsini davam etdirərək yazırdı: "Mehmet İzzətin düşüncəsi, Qərb düşüncəsinə nəzərən, "orijinal" bir düşüncə olmasa belə, müzakirə etdiyi bütün problemlər, Qərb düşüncəsinin əlaqəli qaydalarında, ancaq bu qədər incə və dərin bir şəkildə araşdırılmış, müzakirə və sistemləşdirilmişdir. Əgər çağdaş Türk düşüncəsinə nəzərən orijinal olsa da, o da bu səbəbdəndir ki, Mehmet İzzət, Türk düşüncəsinə daha rasionalistik vermək üçün sosio-filosofik problemlərin izahında, doğrudan-doğruya Qərb fəlsəfəsi tarixinə bağlanmışdır. Türk düşüncəsinə "intellektual" bir kamillik üçün tənqidi düşüncəni yerləşdirmişdir" [8, s. 156-157]. **Bu il Mehmet İzzətin vəfatının 90 illiyidir.**

AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor **Ziyəddin Göyüşov** (1920-1985) fəlsəfi-etik fikir tarixi problemlərinin görkəmli tədqiqatçısıdır. Azərbaycanda etika məsələlərini sistemli şəkildə araşdıran alim dəyərli əsərlərin müəllifidir. "Azərbaycan maarifçilərinin etik görüşləri" (1960), "Zərdabinin dünyagörüşü" (1962), "XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri" (1964), "Əxlaqi sərvətlər" (1966), "XIX - XX əsrlərdə Azərbaycanda etik fikir", "Həzz və iztirab" (1969), "Fəzilət və qəbahət" (1972), "Daxilə pəncərə" (1978) və b. əsərlər onun yaradıcılığında mühüm yer tutur. Ziyəddin Göyüşov Həsən bəy Zərdabinin seçilmiş əsərlərini ilk dəfə tərtib və çap etdirmişdir. Alimin əsərlərində A.Bakıxanov, M.F.Axundov, S.Ə.Şirvani və b. maarifçilik, ədəbi fəaliyyəti əhatəli şəkildə göstərilir, onların fəlsəfi-etik fikirləri araşdırılır [2, s. 37-39]. **2020-ci ildə Ziyəddin Göyüşovun doğumunun 100 illiyidir.**

Şərq dünyası yetirdiyi ideoloqları və mütəfəkkirləri ilə müasir dövrdə dünya elm və mədəniyyət tarixində özünəməxsus mövqeyə malikdir. Bu şəxsiyyətlərin irsi həmişə müasirdir, böyük elmi dəyəri vardır.

## Nəticə / *Conclusion*

Orta əsr Şərq elminin və fəlsəfi fikrinin ən yüksək zirvəsidir. 2020-ci ildə bu dövrdə yaşayıb yaratmış filosoflardan və mütəfəkkirlərindən bəzisinin doğum və anım tarixləri ilə böyük əhəmiyyət

kəsb edir: Yəqub Kindinin doğumnun 1220 illiyi, Əbunəsr Farabinin vəfatının 1070 illiyi, İbn Sinanın doğumunun 1040 illiyi, Əbülhəsən Əşərinin vəfatının 1085 illiyi, Maymonidin doğumunun 885 illiyi, Fəxrəddin Razi vəfatının 810 illiyi, Əbülqasim Zəncaninin doğumunun 1030 illiyi, İbn Ərəbinin doğumunun 855 və vəfatının 780 illiyi, Şihabəddin Ömər Sührəvərdinin doğumunun 875 illiyi, Şəmsəddin Xoylunun vəfatının 780 illiyi, Səfiəddin Hindi Urməvinin vəfatının 705 illiyi, Mahmud Şəbüstərinin vəfatının 700 illiyi, Məhəmməd Qarabağinin vəfatının 485 illiyi, Kəmaləddin Ərdəbilinin doğumunun 545 illiyi, Əhməd Ərdəbilinin vəfatının 435 illiyidir.

Orta əsrdə Şərq dünyasında alimlərin və filosofların yaratdıqları əsərlər qərb aləminə nüfuz etmişdir. Yeni dövrdən başlayarq Qərb ölkələrində elmi biliklərin tərəqqisi başlamışdır.

Orta əsrdə müsəlman aləmində elmin mövcud olub, sonrakı əsrlərdə tənəzzül etməsi ilə əlaqədar "Əkinçi" qəzetində yazıçı-jurnalist Əsgər ağa Gorani bir bayatı göstərir: "Bizim zəmanə dəyişilməyi hətta çobanlara da məlumdur, bayatısında deyir:

Qarğalar laçınlandı,
Laçınlar qarğalandı...

Əsgər ağa Gorani bayatını belə açıqlayır: Əlhəqq zəmanəmiz dəyişilib. İndi güc və igidlik əyyamı deyil, elm əyyamıdır və çobanın sözü doğrudur ki, bu zəmanə bizi qarğalandırıb və qeyriləri laçın edib. Lakin keçmişdə bizim xəlifələrin vaxtında islam tayfası elm təhsil etməkdə laçın imiş.

Əsgər ağa Gorani İslam aləmi ilə xristian dünyasını müqayisə edərkən yazmışdır: Min il bundan əqdəm Əbu Sina adlı ərəb hükəması dağlar necə əmələ gəlməyindən bir kitab yazıb ki, hərgah indi onun tarixini dəyişdirsən, bilmək olmaz ki, onu min il bundan əqdəm yazıblar, yəni Avropa hükəmaları bu qədər zəhmət çəkibsələr də, ondan artıq bilmirlər. Amma çifayda, indi laçınlar qarğalanıb, necə ki, bizim xəlifələrin dövranında xristianlar avamlığından öz naxoşlarının üstə həkim gətirməyi günah bilib, onun ağrıyan yerlərinə keşiş yazan duanı bağlayırlar imiş [1, s. 324].

Yeni dövrdən başlayaraq Qərb ölkələrində tərəqqiyə başlayan elm və fəlsəfi fikir Şərq elminə təsir etmişdir. Müasir dövr Türk, ümumiyyətlə, Şərq dünyasında ideologiya və mənəvi dəyərlərlə məşğul olan dahi mütəfəkkirlərin və alimlərin fəaliyyətlərilə əlamətdardır. 2020-ci ildə belə görkəmli şəxsiyyətlərdən – Əli bəy Hüseynzadənin vəfatınınn 80 illiyi, Yusif Akçuranın vəfatının 85 illiyi, Mehmet İzzətin vəfatının 90 illiyi, Məhəmməd Əmin Rəsulzadənin vəfatının 65 illiyi, Ziyəddin Göyüşovun doğumunun 100 illiyidir.

## İstifadə olunmuş ədəbiyyat / *References*


1. "Əkinçi" qəzeti (1875-1877). Tərtib edəni: Turan Həsənzadə. Bakı, 1979
2. Məmmədov (Baharlı) O. Ağdamın adlı-sanlı pedaqoqları, alimləri. Baki: Sabah, 2001. səh.37-39
3. Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, 1994
4. Məmmədov Z. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Baki: Elm nəşriyyatı, 1978
5. Məmmədov Z. Orta əsr Şərq fəlsəfəsi və fəlsəfə tarixində onun əhəmiyyəti. Şərq fəlsəfəsi (IX-XII əsrlər). Bakı Dövlət Universiteti nəşriyyatı, 1999.
6. Rəsulzadə M.Ə. Əsərləri. Toplayanı, tərtib və transliterasiya edəni professor Ş.Hüseynov. Bakı, 1992
7. Akçura Yusuf. Üç Tarz-ı Siyaset. Ankara, Türk Tarih Kurumu Basımevi, 1976
8. Değirmencioğlu M.Coşkun. Mehmet İzzet. Ankara, Kültür ve Turizm Bakanlığı Yayınları, 1987
9. Gökalp Ziya. Türkçülüğün Esasları. Hazırlayanlar: Mahir Ünlü, Yusuf Çotuksöken. İstanbul, 1987
10. Ülken Hilmi Ziya. İslam Felsefesi Kaynakları ve Tesirleri. Ankara: Türkiye İş Bankası Kültür Yayınları, 1967
11. Ülken Hilmi Ziya. Türkçülüğün ve Türk Sosyalizminin babası Ali Turan. Yeni İnsan Dergisi. Sayı: 84. İstanbul, 1969. s. 6-11; 21-25

12. Ülken Hilmi Ziya. Türkiyede Çağdaş Düşünce Tarihi. İstanbul, 1994.

# О великих ученых и философах восточного мира

**Айтек Мамедова**
Доктор философии по философии, доцент, Института философии и социологии НАНА, ведущий научный сотрудник. Азербайджан.
E-mail: a.z.m-9@mail.ru

**Резюме.** В статье рассматривается деятельность ученых и философов восточного мира, как в средние века, так и в современную эпоху. Тот факт, что Средние века были вершиной восточной науки и философской мысли, очевиден в творческом наследии личностей, которые жили и творили в этот период. Благодаря своей научной деятельности они заняли важное место в истории мировой науки и культуры. В связи с этим Якуб аль-Кинди, Абу Наср аль-Фараби, Ибн Сина, Ибн Араби, Абухафс Омар Сухраварди, Шамсаддин Хойлу, Сафиаддин Хинди Урмави Махмуд Шабустари, Мухйиддин Мухаммад Карабахи, Камаладдин Ардабили, Ахмед Ардабили и др. своими произведениями приобрели бессмертие в истории. Их произведения повлияли на деятельность мыслителей в последующие века, а также проникли в западный мир. Современная эпоха отмечена деятельностью гениальных мыслителей и ученых, занимающихся идеологией и моральными ценностями в восточном мире. В этот период творили такие личности, как Али бек Гусейнзаде, Юсуф Акчура, Мехмед Иззет, Мамед Эмин Расулзаде, Зияддин Геюшев.
**Цель:** 2020 год ознаменован датами рождения и памяти этих ученых и философов, которые жили в средние века и современную эпоху.
**Методология:** системный подход, исторический метод
**Научная новизна:** впервые исследованы работы двадцати великих ученых и философов Востока, творивших в средние века и современный период.
**Ключевые слова:** Восток, история, ученый, философия, культура, наука.